

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

19 mart 2020-ci il
Cümə axşamı

№ 11 (3476)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ PRİORİTET VƏZİFƏDİR



Ölkəmizdə aparılan islahatların iqtisadi inkişafla yanaşı, əhalinin sosial müdafiəsinə də xidmət etməsi davam edir. Dövlətin sosial sahəyə diqqəti sayəsində vaxtaşırı pensiya, təqaüd, müavinət və əməkhaqları artırılır, şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək üçün mütəmadi tədbirlər görülür.

Belə ki, Prezidentin imzaladığı sərəncamla cari ildə bütün pensiyalar 16,6 faiz indeksləşdirildi. Bunun nəticəsində ölkə üzrə bütün pensiyaların orta aylıq səviyyəsi 300 manata yüksəldi. Yaşa görə pensiyalarda isə bu səviyyə 350 manata çatdı.

Dövlət əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar zamanı lazım olan məbləğdə vəsait ayırır. Məsələn, son islahatların maliyyə dəyəri 560 milyon manata bərabərdir. Təkcə cari ildə indeksləşdirmə hesabına pensiyaçılara əlavə olaraq 550 milyon manat vəsait ödəniləcək. Ümumilikdə cəmi bir il ərzində qəbul edilən qərarların icrası üçün pensiyaçılara 1 milyard manatdan artıq vəsait ödənilir.

Pensiya almayan, lakin sosial müdafiəyə ehtiyacı olan ailələr də unudulmur. Yəni əhalinin sosial müdafiəsi gücləndirilərkən bu kateqoriyadan olan insanların ehtiyacları da nəzərə alınır.

Qeyd edək ki, ötən ilin sonunda ünvanlı sosial yardım mexanizminə cəlb edilən insanların sayı 72 min nəfər olub. Halbuki həmin ilin əvvəlində bu rəqəm 40 min idi. Yəni bir il ərzində 50-70 faizlik artım qeydə alınıb. Cari ildə isə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsait hesabına 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılır ki, bu da proqramla əhatə olunanların sayının 20 faiz artması deməkdir.

Əhalinin sosial müdafiəsinin ən səmərəli forması məşğulluğun təmin edilməsidir. Bu səbəbdən aparılan islahatların bir istiqaməti də əhalinin özünüməşğulluq proqramına cəlb olunmasıdır. Əgər 2017-ci ildə bu proqrama 1500 ailə cəlb edilmişdisə, 2018-ci ildə o, 7 min, 2019-cu ildə 10 min ailəni əhatə edib. Cari ildə isə daha 11 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılır.

Əhalinin məşğulluğunun təmin edilməsinin bir forması da DOST Agentliyi tərəfindən vətəndaşların ödənişli işlərə cəlb edilməsidir. Ötən il DOST İş Mərkəzi vasitəsilə 38 min işsiz vətəndaşın məşğulluğu təmin olunub.

**Prezident İlham Əliyev martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.**

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ-VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA KORONAVİRUS İNFEKSİYASI İLƏ BAĞLI XALQIMIZA MÜRACİƏT EDİB

Müraciətdə deyilir:

"Dünya qlobal çağırışla üz-üzədir. Hələ bir il bundan əvvəl bizim əksəriyyətimiz sadəlövhcəsinə güman edirdik ki, pandemiya, bu gündədk bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü keçmişdə qalıb.

İnanırdıq ki, biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən "sürprizlərdən" sığortalayıb. Reallıq isə fərqli oldu. Nassem Talebin müzakirələrə səbəb olan "Qara qu quşu" dünyada hökm sürür. Müəllif öz məşhur kitabında yazır: "Hamı özünü təhlükədən qorumaq istəyir. Üsullardan biri – riskləri qiymətləndirmək və onları idarə etməkdir... Bizim nə qədər səy göstərməyimiz vacib deyil. Hər hansı bir riski dəqiqliklə proqnozlaşdırmaq qeyri-mümkündür".



"COVID-19" barədə kifayət qədər məlumat var. Yeni virus və ona yoluxmanın bütün fəsadları real zaman rejimində əsas dünya informasiya trendidir. Paradoksaldır, amma informasiya bolluğuna baxmayaraq, suallar cavablardan daha çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatının rəsmi statistikasına görə, dünyada virusa yoluxanların sayı 198 737 nəfər, həlak olanların sayı 7989 nəfər, sağalanların sayı 82 779 nəfərdir. Pandemiya elan olunan epidemiya 167 ölkədə yayılıb.

Təkzibolunmaz faktdır ki, dünya belə riskə hazır deyildi. Hətta səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi-intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələr belə epidemiyanın yayılmasının qarşısını ala bilmədilər.

Misilsiz tədbirlər görülür, sərhədlər bağlanır, dövlətlər təcrid olunur.

İnanıram və ümid edirəm ki, ümumi səylərimiz mütləq nəticə verəcək. Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır.

Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır.

Əziz həmvətənlər!

Ölkəmizdə bütün qüvvələr hadisələrin ən pis yöndə inkişafının qarşısının alınmasına səfərbər olunub. Bütün dövlət strukturları mobilizasiya olunub və birgə fəaliyyət göstərir. Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir və bu qurumun tövsiyələrinə çox ciddi yanaşırıq.

Epidemiyanın sürətlə yayılması, onun pandemiyaya çevrilməsi bu xəstəliklə mübarizədə vahid strategiya və taktikanın hazırlanmasını çətinləşdirir. Virusun və xəstəliyin tədqiqatı onlara qarşı mübarizə ilə eyni vaxtda aparılır.

Buna görə də bir çox tövsiyələr situativ xarakter daşıyır və məlumat bazası genişləndikcə dəyişir. Aydın olan odur ki, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsi, şəxsi məsuliyyət və intizamlılıq özünüzü və ətrafınızdakıları qorumağın əsas şərtləridir.

Koronavirus epidemiyası ilə mübarizədə Azərbaycan dövləti ilə sıx əməkdaşlığa görə Ümumdünya Səhiyyə Təşkilatına minnətdarlığımı bildirirəm.

Bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıram.

Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir.

Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir.

Bu gün infeksiya ilə mübarizədə ön cəbhədə olanların, Azərbaycan vətəndaşlarının sağlamlığını və həyatını qorumaq üçün bütün lazımi tədbirləri görənlərin hər birinə – həkimlərə, tibbi personala, müxtəlif dövlət qurumlarının əməkdaşlarına xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar!

Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri – ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram!

Ulu Tanrı bu çətin gündə hamıya kömək olsun.

Hər birinizə dualar və sevgi ilə,

***Sizin MEHRİBAN"***

## OPERATİV QƏRARGAH: BAKI, SUMQAYIT ŞƏHƏRLƏRİNƏ VƏ ABŞERON RAYONUNA GİRİŞ MƏHDUDLAŞDIRILIR

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi tədbirləri davam etdirilir.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə martın 19-da saat 00:00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılır.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunur. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verilir.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan avtomobillərin və sərnişindaşıma nəqliyyat vasitələrinin qeydiyyatda olduqları yaşayış məntəqələrindən kənara səfər etməkdən və sərnişin daşımaqdan çəkinməyə çağırırıq.

Sumqayıt və Abşeron istisna olmaqla ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır.

Ölkə ərazisindəki hava limanlarından Bakıya sərnişin daşınmasına fasilə verilir.

Ticarət əlaqələrinin saxlanması, ərzaq və başqa gündəlik tələbat mallarına ehtiyacı təmin etmək məqsədilə bütün nəqliyyat vasitələri ilə yükdaşımaları sərbəstdir.

Xüsusi buraxılış rejimi qaydalarını pozan şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri tətbiq olunacaq.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

***Hörmətli həmkarlar!***

***Novruz bayramı münasibətilə sizi, həmçinin hörmətli veteranlarımızı, şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edirəm.***

***Xalqımızın zəngin mənəvi aləmini əks etdirən Novruz bayramının dövlət səviyyəsində qeyd olunması ulu öndər Heydər Əliyevin çoxsaylı tarixi xidmətlərindən biri, milli-mənəvi dəyərlərimizə böyük ehtiramının bariz ifadəsidir.***

***Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin praqmatik dövlət siyasəti sayəsində hərtərəfli inkişaf edən, əhalinin rifah halı günbəgün yüksələn ölkəmizdə bu Novruz da əmin-amanlıq şəraitində, nikbin əhval-ruhiyyə, böyük sevinc hissi ilə qarşılanır.***



***Əminəm ki, xalqa, Vətənə, dövlətçiliyə sədaqətli xidməti möhtərəm Prezident tərəfindən hər zaman yüksək qiymətləndirilən şəxsi heyətimiz quruculuq işlərinin və davamlı tərəqqinin mühüm şərtlərindən olan sabitliyin keşiyində bundan sonra da əzmlə dayanacaq, asayişin və təhlükəsizliyin təmin olunması, vətəndaşlarımızın qanuni mənafelərinin hüquqazidd əməllərdən müdafiəsi kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.***

***Hamınıza möhkəm cansağlığı, bahar əhval-ruhiyyəsi, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.***

***Bayramınız mübarək olsun!***

***Vilayət Eyvazov,***
***Azərbaycan Respublikasının***
***Daxili İşlər naziri, general-polkovnik***

# 28 il–DİN DAXİLİ QOŞUNLARININ DÖYÜŞ VƏ XİDMƏT YOLU

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 28 il ötür. Bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda milli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.**





Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" önünə əklil qoyulub, Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət olunub.

Martın 12-də Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə-növbəti ildönümə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bugünü barədə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, milli lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün – 1992-ci ilin 12 mart tarixi "Azərbaycan Respublikasının Daxili Qoşunları Günü" elan olunub.

Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən Qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü və hərbi qulluqçulardan 9 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü qeyd edib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev Daxili Qoşunların yaranmasının 28-ci ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, çıxışında təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini vurğulayıb.



Sonra çıxış edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov milli lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Nazir möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin müasir standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib.

V.Eyvazov qeyd edib ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, ölkəmizdə keçirilən I Avropa oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri"si yarışları kimi mötəbər beynəlxalq idman və digər mədəni-kütləvi tədbirlər zamanı, eləcə də təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin imzaladığı müvafiq sərəncamı ilə daha 18 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

General-polkovnik Vilayət Eyvazov ölkə Prezidentini əmin edib ki, Daxili Qoşunların bütün şəxsi heyəti bundan sonra da respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək.

Sonra əlamətdar gün münasibətilə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə Daxili İşlər Nazirinin və nazir müavini-Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunub, mükafatlar sahiblərinə təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

# BU BAHAR QƏLƏBƏ GƏTİRSİN BİZƏ



**Kəsilmiş ağacların ağrısının göyərməyinə yaz deyilir. Hər yaz olduğu kimi bu yaz da dərdi qönçə tutmuş qızılgüllər bülbülün bir ağızlıq naləsinə bənddir ki, açılsınlar. "Od çərşənbəsi" qışın sonuncu nəfəsinə elə bir ilıqlıq qatıb ki, günəşin qızıl telləri canını isidən nərgizlərin, qardələnlərin, novruzgüllərinin ürəyi uçunur torpaqdan baş qaldırıb təbiəti salamlamağa.**

Birazdan quşların "kəlbətin" dimdiyi işə düşəcək, çör-çöp yığıb köhnə yuvalarını yenidən quracaq, "odu soyuyan" ocaqlarını yenidən yandıracaqlar... Quş olanda nolar ki, onların da nisgili, həsrəti var...

Xəstələnərik, soyuqlayarıq deyə evdən bayıra çıxmadığımız qış günlərində civildəşən sərçələri heç müşahidə etmisinizmi? O civiltilərdəki özünəinamı, yuva sevgisini duymusunuzmu? Donmamaq, gələn yaza sağ çıxmaq üçün

*Əzizim Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı,-*

bayatısının sərçələrin yaşam himni olduğunu bilirdinizmi?

Babalarımız əbəs yerə: "Sən sərçənin qədrini bil, qaranquş gəldi-gedərdi",- deməyiblər.

İnsan ömrü də fəsillər kimidir. Yazı, yayı, payızı, qışı var. Verilən ömür payını ta torpağa dönənə kimi fəsilbəfəsil yaşayırıq. Heç kim və heç nə uca yaradanın nizamladığı qanunauyğunluqdan, daha doğrusu, adına alın yazısı dediyimiz qəlibdən bircə addım da kənara çıxmır. Hər şey olduğuna varır...

Baharı gözləmir yurdsuz adamlar... Görəsən, bu doğrudanmı belədir? Bu, əslində, həqiqətdir. Yurdsuzlar üçün bütün fəsillər göynərti rəngindədir. Ömrünə Vətənsiz gələn 80-ci yazı görməmək üçün əzizlərim-nənəm və babam

*Bu yaz yuvasına dönür quşlar da,*
*Mən dönə bilmirəm Dağ İlməzliyə,-*

deyib Tanrı ilə dərdləşəndə 7 yaşım vardı. Vətəndə Vətən həsrəti çəkənlər Haqqa varandan sonra neçə yazlar, neçə qışlar gəldi, getdi ömrümüzdən. Hər gələn yazda dönmək arzumuzla bərabər, nisgilimiz də, həsrətimiz də böyüdü, boy atdı. İndi mənim Vətəndə vətənsizliyimin yaşı 40-ı haqlayır...

Hər gələn baharda qaysaq tutmamış yarası qanayıb, bağrı köz-köz olan, indi Ermənistan adlandırılan torpaqlarımıza, Lələtəpədə ucalan bayrağımıza üzünü tutub "Səni gözləyirəm, Azərbaycan əsgəri",-deyən Qarabağımıza dönmək üçün toparlanmalı, bizi "sən"lərə, "mən"lərə bölmək istəyənlərə həddini bildirməliyik. Buna gücümüz də var, birliyimiz də!

Düşməndən azad olunmuş torpaqlara yaz bir başqa görkəmdə gəlir. Mən bunu Lələtəpədə görmüşəm. İllər öncə Kəlbəcərə yazı bu gün düşmən girovluğunda olan Dilqəm aparmışdı. Qarabağımıza isə yazı Azərbaycan Xalqının, Ali Baş Komandanımızın qürur yeri olan Azərbaycan əsgəri gətirəcək. Bax, onda əsgər çəkmələrinin dəydiyi Vətən torpağı diksinməyəcək, çünki üstündə gəzən öz doğması olacaq. Azad olunduqdan sonra torpa-



ğın "Su yaddaşı" təzələnəcək və bizim sevincimiz həsrət (sərhəd) tanımayacaq.

Odun yansın, suyun axsın, gülün, könlün açılsın, bu yaz bizə Qələbə gətirsin, Vətən!

Bayramın mübarək, Azərbaycanım!

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# POLİS ƏMƏKDAŞLARINDAN BAYRAM SOVQATI

Hər il olduğu kimi, bu il də Novruz bayramı ərəfəsində daxili işlər orqanları əməkdaşlarının könüllülük prinsipi əsasında topladıqları 80 min manat məbləğində maddi yardım Daxili İşlər Nazirliyinin nümayəndələri tərəfindən Sabirabadın Yeni Şəhriyar və Goranboyun Aşağı Ağcakənd qəsəbələrində müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərə çatdırılıb.

# Yalan informasiya yayanlar məsuliyyətə cəlb olunacaqlar

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus epidemiyasının qarşısının alınması üzrə həyata keçirilən qabaqlayıcı tədbirlər, virusa yoluxmuş və karantinə yerləşdirilmiş şəxslərin sayı, onların müalicəsi və s. barədə ictimaiyyət mütəmadi məlumatlandırılır.

Lakin ayrı-ayrı şəxslər tərəfindən sosial şəbəkələrdə və "watsapp" ani mesajlaşma tətbiqi vasitəsilə koronavirus ilə mübarizədə insanlarda təşviş və çaşqınlıq yarada biləcək tədbirlərin görülməsi haqda müxtəlif şaiyələr yayılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi vətəndaşları belə yalan məlumatlara inanmamağa, yalnız səlahiyyətli dövlət orqanlarının məlumatlarını nəzərə almağa çağırır.

Eyni zamanda həqiqəti əks etdirməyən, cəmiyyətdə süni ajiotaj yaratmağa hesablanmış bu cür əsassız və uydurma informasiyaları yayan şəxsləri xəbərdar edirik ki, yol verdikləri qanunazidd əməllərə görə barələrində tədbirlər görüləcək.

# ELAN

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Əlahiddə Çevik Polis Alayında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

# HİSSLƏRİNİ BELƏ İFADƏ EDİRLƏR...

**Polisin vəzifəsi, borcu həm dövlətin mənafeyini, həm də vətəndaşların hüquqlarını qorumaqdır.** Polis tərəfindən təhlükəsizlik mühitinin yaxşılaşdırılması, vətəndaşların rahatlığı ilə yanaşı, cəmiyyətin də inkişafına təkan verən amillərdəndir. Bu gün Azərbaycan Polisi xidmətini vətəndaş məmnunluğu uzərində quraraq insanların etibar etdiyi, güvənc bildiyi quruma çevrilib. Daxili İşlər Nazirliyinə, o cümlədən redaksiyamıza ünvanlanan məktublarda xalq-polis həmrəyliyinin şahidi oluruq. “Mənim Polisim məni qoruyur, polisimizlə qürur duyuram” , - fikirləri isə məktubların qayəsini təşkil edir.

**İsmayıllı rayon sakini Zərifə Qəndiyeva:** “Ruhi xəstə olan qardaşım evdən gedərək itkin düşmüşdü. Təlaş içində polisə müraciət etdik. Onlar tez bir zamanda qardaşımın yerini müəyyənləşdirib, bizə məlumat verdilər. Onun tapılmasında göstərdikləri köməyə görə İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığımızı bildiririk”.

Hüquqlarının pozulması ilə bağlı Sabunçu Rayon Polis İdarəsinə müraciət edən **paytaxt sakini Hürnisə Kərimovanı** idarənin rəisi, polis polkovniki Eldar İlyasov qəbul edib. Müvafiq araşdırmadan sonra problemi həllini tapıb.

**Bakı şəhər sakinləri Mətanət Əbilova və Ülviyyə Əliyeva** baş vermiş oğurluq hadisələrinin üstünün tez bir zamanda açılaraq onlara dəymiş ziyanın ödənilməsində göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlıqlarını bildirirlər.

**Paytaxt sakini Xatirə Rəhimli** təşəkkür məktubunda ailəsinə dəstək olduqları üçün Binəqədi RPİ 6-ci Polis Şöbəsinin əməkdaşlarına xidmətlərində uğurlar diləyir.

**Sumqayıt şəhər sakini Mais Məmmədov** avtomobilində baş vermiş oğurluq hadisənin "isti izlərlə" açılmasında və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməyə görə Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# KEÇİRİLƏN TƏDBİRLƏR ANLAYIŞLA QARŞILANIR

Məlum olduğu kimi, koronavirus infeksiyası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən 2020-ci il 14 mart tarixdən ölkə ərazisində zəruri sosial izolyasiya tədbirləri tətbiq edilir. Konkret olaraq, bir ay müddətində kütləvi tədbirlərin keçirilməsi təxirə salınmış, restoran və kafelərdə iş rejimi saat 21:00-dək müəyyən edilmiş, eləcə də həmin vaxtdan sonra klub və barların fəaliyyətinə qadağa qoyulmuşdur.

Qeyd edilməlidir ki, tətbiq olunan məhdudiyyətlər vətəndaşlar tərəfindən bütövlükdə anlayışla qarşılanır, dövlətin həyata keçirdiyi əlaqədar tədbirlər dəstəklənir.

Lakin respublikanın bəzi şəhər və rayonlarında ayrı-ayrı iaşə müəssisələrinin sahibləri müvafiq obyektlər üçün müəyyən edilmiş iş rejimini pozub saat 21:00-dan sonra da fəaliyyətlərini davam etdirməyə cəhd göstərmişlər. Həyata keçirilmiş nəzarət tədbirləri ilə həmin obyektlərin fəaliyyəti dayandırılmış, onların sahiblərinə bu məkanlar üçün müəyyən edilmiş qaydalara əməl olunmasının vacibliyi izah edilmişdir.

Vətəndaşlardan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi sosial izolyasiya tədbirlərinə ciddi riayət etmələri, bütün tövsiyə, təklif və qərarlarının qeyd-şərtsiz icrası tələb olunur.

# PROFİLAKTİK TƏDBİRLƏR GÖRÜLÜR

**Bu gün COVID-19 koronavirusu dünyada pandemiye elan olunub. Ölkəmizdə onun qarşısının alınması istiqamətində karantin tədbirləri həyata keçirilir.**



Bütün dövlət qurumlarında və təşkilatlarında olduğu kimi Daxili İşlər Nazirliyinin inzibati binasında da bir sıra qabaqlayıcı profilaktik tədbirlər görülür, gündəlik olaraq dezinfeksiya işləri aparılır, sanitar-gigiyena qaydalarına riayət olunması ciddi nəzarətdə saxlanılır. Bundan başqa, Mərkəzi aparata daxil olan əməkdaşların hərarəti tibb işçiləri tərəfindən xüsusi aparatlar vasitəsilə yoxlanılır, onlar əllərini spirtlədikdən sonra xidməti otaqlara daxil olurlar. Görülən işlər bir məqsədə: vətəndaşların təhlükəsizliyinin keşiyində dayanan daxili işlər orqanları əməkdaşlarının sağlamlıq durumunun qorunub saxlanılmasına xidmət edir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# BƏRDƏDƏN AĞDƏRƏYƏ GEDƏN YOLLAR...

**“İnsanın bacarmadığı, öhdəsindən gələ bilmədiyi iş yoxdur. Yerin dərinliklərində, göyün ənginliklərində möcüzələr yaratmaq ulu yaradanın ona bəxş etdiyi üstünlüklərdəndir. Zəhmətə alışmaq, çətinliyə qatlaşmaq, hədəfinə doğru irəliləmək, bərkə-boşa düşmək, gələcək uğurların təməl daşıdır.**



Bizim dövrümüzdə polisin işi daha çətin idi. Elm-texnika bu qədər inkişaf etməmişdi. Bu gün daxili işlər orqanlarının maddi-texniki təchizatı çox yüksəkdir. Özünü doğrultmaq, təcrübə toplamaq, ən əsası, işləmək üçün yaradılan şərait göz önündədir. Bu gün xidmətdə olan əməkdaşlara yanaşı, biz polis veteranlarına da təcrübəmizi gənclərlə bölüşmək, onlara əməli kömək üçün şəraitin yaradılması, dövlətimizin iqtisadi qüdrətindən və hansı yaşda olursa-olsun Vətəninə xidmət edən, onun gələcəyini düşünən insanlara verilən dəyərin göstəricisidir. Bütün bunlar isə bizə yaşamağa inam verir, gərəkliyimizi hiss etdirir”…

Bərdə RPŞ Veteranlar Şurasının sədr müavini, təqaüddə olan polis mayoru Oktay Məmmədov söhbətimizə bu fikirlərlə körpü saldı. Ötənləri, itənləri xatırladı, elə də köhnəlməyən yaddaşını təzələdi.

Xankəndində Pedoqoji İnstitutu bitirdikdən sonra, “dünyanın düz vaxtında” Rusiyaya köçüb. Orda pedoqoji fəaliyyətlə məşğul olub. Ruslara sovet tarixini tədris edib. 1990-cı il hadisələrindən sonra erməni millətçilərinin əsassız iddialarının qarşısını almaq, təklənən Vətənimizi qorumaq üçün, o da, Rusiyada yaşayan, iş-güc sahibi olan oğullarımız kimi Azərbaycana qayıdıb.

Həmin vaxt ata yurdu Ağdərənin də taleyi tükdən asılı idi. Düşmən kəndlərə hücum edir, əhalini qorxu altında saxlayırdı. Vətəni müdafiə etmək üçün polisin sıralarına qoşulmasına belə aydınlıq gətirir: "O zaman siyasi proseslərə qoşulan kütlənin arxasınca getmək bizi məqsədimizdən uzaqlaşdırardı. Polisdə olan nizam-intizam diqqətimi çəkmişdi. 1990-cı ildə xidmətə qəbul olundum. Asayişin keşiyində durmaq, cinayətkarlıqla qətiyyətli mübarizə aparmaqla yanaşı, əsas görəvimiz Vətəni qorumaq idi"…

Ağdərə RPŞ-nin əməkdaşları çox ağır sınaqlardan çıxmış, necə deyərlər, ölümlərdən sıyrılmışdılar. Onlar az sayda canlı qüvvə ilə düşmənin sıralarını pərən-pərən salmış, döyüş texnikalarını məhv etmişdilər. Buna görə də erməni millətçilərinin əsas məqsədi polisin müqavimətini qırmaq idi…

Ağdərənin işğalından sonra Tərtərdə məskunlaşıblar. DİN-in müvafiq əmri ilə Ağdərə RPŞ ləğv edilib və o, Bərdə RPŞ-də xidmətə qəbul olunub. 2016-cı ildən təqaüddədir.

Uzun müddət Bərdə RPŞ-də əməliyyat sahəsində çalışıb.

Söhbət zamanı qocaman həmkarımız açılmasında yaxından iştirak etdiyi, səs-küylü oğurluq hadisəsindən də bəhs etdi: “2001-ci ilin mayında Gərənə kəndində məskunlaşmış Ağdam rayon köçkünü yaşadığı evin həyətindən mal-qarasının oğurlanması barədə RPŞ-yə müraciət etmişdi. Dərhal həmin kəndin sahə inspektoru ilə hadisə yerinə getdik. Baxış zamanı evdən təxminən 10-15 metr aralıda cib dəsmalına bükülmüş 4 ədəd tüfəng gülləsi və bir də işlək vəziyyətdə olmayan qol saatı aşkarladıq. Saatın əqrəbləri 5:23-ü göstərirdi. Güman olunurdu ki, oğurluq da həmin ərəfədə baş vermişdi və cinayəti törədən şəxslər silahlıdırlar. Onların başqa yerlərdə də oğurluqlar törətdikləri istisna edilmirdi. Elə həmin gün cinayəti törədən şəxslərdən birinin izinə düşdük. İsti izlərə davam etdirilən tədbirlər nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən digər şəxsi də yaxalamaq mümkün oldu. Onun həyətinə baxış keçirilən zaman həmin gün oğurladığı iribuynuzlu heyvanlar, 12 ədəd çətənə kolu, 200 metr uzunluğunda alüminium kabel və 1 ədəd tüfəng aşkar edilərək götürüldü. İstintaqın gedişində məlum oldu ki, həmin şəxs öz yaxın qohumu olan daha 2 nəfərlə birlikdə rayonun bir neçə kəndindən mal-qara oğurlayaraq vətəndaşlara külli miqdarda ziyan vurub. Və beləliklə bağlı qalmış daha 18 cinayətin açılması təmin olundu. DİN rəhbərliyi tərəfindən "Fəxri fərman"-la təltif edildim. Bu hadisədən sonra rayon ərazisində bir müddət mal-qara oğurluğu baş vermədi”.

Bərdə qürbət deyil, Vətənimizin bir parçasıdır. Bu gün onun yaşının elə çağıdır ki, vətənsizliyini övladlar, nəvələr görməsin deyə gözünün yaşını silib, dərdini Bərdədən Ağdərəyə gedən yollara danışır.

Ümidlidir, özü belə deyir, uzağı gələn yaza qayıdacaqlar…

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

### BU DƏFƏ NARKOTACİRLƏR TUTULDU

NBPİ-nin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən Xəzər dənizi vasitəsilə qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilən külli miqdarda narkotik vasitələrin realizə olunmasının qarşısı alınıb. İdarəyə daxil olan məlumat əsasında keçirilən tədbir zamanı Astara şəhər sakinləri Kamran Hüseynov və Ehtiram Hüseynov tutularaq istintaqa təqdim olunublar. Şəxsi axtarış zamanı Kamran Hüseynovun əlindəki bağlamaya baxış keçirilərkən 3 kiloqram 685 qram heroin və 3 kiloqram 390 qram tiryək aşkar edilərək götürülüb.



Araşdırma zamanı müəyyən olunub ki, Kamran Hüseynov şəxsiyyəti istintaqa məlum olmayan İran İslam Respublikasının vətəndaşı “Rəsul” adlı şəxslə əvvəlcədən razılığa gələrək ondan satmaq məqsədi ilə külli miqdarda narkotik vasitələr alıb. Daha sonra həmin şəxs narkotik vasitələri gizli yolla Azərbaycan ərazisinə keçirərək Xəzər dənizinin sahilində Astara rayonu ərazisində əvvəlcədən müəyyən edilən yerdə gizlədib. Bundan sonra Kamran Hüseynov həmyerlisi Ehtiram Hüseynovun avtomobili ilə qeyd edilən ünvandan narkotik vasitələri götürüb uzaqlaşmaq istəyən zaman Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıblar.

Faktla bağlı dəstə üzvləri barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Saxlanılan şəxslərin ətraflarının və onların cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir.

### "KALAŞNİKOV"U EVİNDƏN GÖTÜRDÜLƏR

Ağstafa Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Xətai kənd sakini Tahir Yaqubəliyevin evinin dam örtüyünün altında iki torbanın içərisində qablaşdıraraq gizlətdiyi “Kalaşnikov” avtomatı, ona aid 4 daraq, həmçinin 245 ədəd müxtəlif çaplı patronlar və 1 ədəd radiocihaz aşkar edilərək maddi sübut kimi götürülüb.

T.Yaqubəliyev polis əməkdaşları tərəfindən saxlanılıb.

Faktla əlaqədar Akstafa Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 228.1-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq və əməliyyat tədbirləri həyata keçirilir.

### HƏDƏ-QORXU İLƏ PUL “QAZANANLAR”

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən vətəndaşlardan hədə-qorxu ilə pul tələb edən dəstə üzvlərinə qarşı əməliyyat tədbiri həyata keçirilib. Belə ki, Baş İdarəyə naməlum şəxslərin Sumqayıt şəhər sakini Nemət Rəhimovdan hədə-qorxu ilə 13 min 400, Biləsuvar rayon sakini Niyaməddin Abbasovdan isə eyni üsulla 15 min manat tələb etməsi barədə əməliyyat məlumatı daxil olub. Həyata keçirilən tədbir nəticəsində qeyd edilən məbləğdə pul vəsaitlərini alan dəstə üzvləri əvvəllər məhkum olunmuşlar, Ağstafa rayon sakini Cavid Həsənov və Biləsuvar rayon sakini Vasif Bağışov tutulublar. Onlar istintaqa verdikləri ifadələrində etdikləri cinayəti etiraf ediblər.

Baş İdarə əməkdaşları tərəfindən keçirilən daha bir tədbir zamanı Bakı şəhər sakini olan bir qadına hədə-qorxu gələrək ondan pul tələb edən Sumqayıt şəhər sakini Teymur Sadiqi-Raşidi saxlanılıb. O, şantaj etdiyi qadından min manat alarkən Baş İdarənmin əməkdaşları tərəfindən tutulub.



Saxlanılan şəxslərin hər biri barəsində Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# ÖMRÜ YARIDA QALSA DA...



**Geridə qoyduğumuz qış mülayim keçsə də təbiət sərt üzünü martın ilk günlərində göstərdi. Güclü külək, yağış və soyuq hava hər kəsi təntitmişdi. Piyada keçidindən istifadə etməyənləri, şütüyən maşınlardan qorxmayıb göz görə-görə həyatını təhlükəyə atanları, mənzil başına "tələsənləri" saxlayıb ömür adlı nemətin qədrini bilməyə çağırırdılar yollarda xidmət aparan həmkarlarımız.**

Hava şəraitindən asılı olmayaraq hər gün xidmətdədirlər. Böyük meqapolisə çevrilən, tıxaclardan təngə gələn Bakımızda hərəkəti tənzimləmək səbr, dözümlə yanaşı, həm də əsl hünər istəyir. Yollar can almasın deyə ayıq-sayıqlıqlarını heç vaxt itirmirlər. Sənə, mənə, bizə, bir sözlə, hamımıza təhlükədən daha yaxındırlar. Bəzən "papanın ərköyün gül balaları"na, yol hərəkəti qaydalarını pozanlara, sərxoş sürücülərə də rast gələndə təmkinini pozmayıb, nəvazişlə, səmimiyyətlə vəzifə borclarını yerinə yetirirlər. Can qurtarmaq, yolda qalana kömək etmək, haraya tələsmək onların devizidir. Xidmətləri sadaladıqlarımızla bitmir. Qayda pozanlara qarşı sərt və yaxud yüngül cəza tədbiri görmək işin ikinci tərəfidir. Polis həm də müəllimdir. Maariflәndirmə işləri aparır, yollarda diqqətli olmağı öyrədir, sürücüləri "sürət məsafəni deyil, ömrü qısaldır" həqiqətini dərk etməyə səsləyirlər. Ancaq bəzən özləri də qayda pozanların qurbanına çevrilirlər. Statistika göstərir ki, onlarla polis əməkdaşı yollarda xidmət apararkən həlak olub və ya sağlamlığını itirib.

**Polis baş leytenantı Böyükağa Əzizov da xidmət zamanı həlak olub.** Xidmətdə olarkən, o, oğurluqda şübhəli bilinən nəqliyyat vasitəsi barədə məlumatlandırılır. Həmkarımız həmin nəqliyyat vasitəsinin sürücüsünə "saxla" əmrini verir. Sənədlərini yoxlayıb, maşına baxış keçirən zaman eyni istiqamətdə hərəkət edən və sürət həddini aşan avtomobil onu vurur. Aldığı xəsarətlərdən həyatını itirir...

Böyükağa Əzizov 25.01.1954-cü ildə Kürdəmir rayonunun Qarasaqqal kəndində doğulub. Azərbaycan Politexnik İnstitutunun "Avtomobil nəqliyyatının istismarı" fakültəsinin mühəndis ixtisası üzrə bitirib. 1983-cü ildə Bakı şəhər Daxili İşlər İdarəsinin Dövlət Avtomobil Müfəttişliyi Şöbəsində baş inspektor kimi xidmətə başlayıb. Sonra təyinatla Ucar RPŞ-də İnzibati-təcrübə üzrə inspektor və Sabunçu RPİ-də Axtarış üzrə baş inspektor kimi xidmət edib.

***Ömrü yarımçıq qalsa da bu gün xidmət yolunu oğlu, polis serjantı Elnur Əzizov davam etdirir. O, Sabunçu RPİ-nin 42-ci Polis Şöbəsinin əməkdaşıdır.***

*Ruslan Vəliyev,*
*polis leytenantı*

**Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğunun əməkdaşları tərəfindən ölkə ərazisində meşə sahələrində, qoruqlarda ağacların qanunsuz olaraq kəsilməsi, yaşıllıq sahələrinin məhv edilməsi ilə məşğul olan mütəşəkkil dəstənin üzvlərinə qarşı kompleks tədbirlər hazırlanaraq həyata keçirilib.**



# MEŞƏ QATİLLƏRİ

Belə ki, hər iki dövlət qurumuna vətəndaşlardan Oğuz, Qəbələ rayonları ərazilərində yerləşən meşə sahələrində qiymətli ağac növlərinin meşələrin mühafizəsinə məsul olan idarənin əməkdaşları tərəfindən qanunsuz olaraq kəsilməsi barədə çoxsaylı müraciətlər daxil olmuşdur.

Əməliyyat tədbirləri nəticəsində müəyyən olunmuşdur ki, Oğuz və Qəbələ rayonları ərazisində yerləşən meşələrdə ağacları kəsərək emal müəssisələrinə satışı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru İlqar Qəribov və onun rəhbərlik etdiyi mütəşəkkil dəstə tərəfindən həyata keçirilir.

Həmin şəxslərin cinayət əməllərini ifşa etmək məqsədilə əməliyyat-nəzarət tədbirləri görülmüş, onların cinayət əməlləri qeydə alınaraq dəstə rəhbəri və üzvlərinin qanunsuz fəaliyyətləri hərtərəfli öyrənilmişdir.

Araşdırmalarla məlum olmuşdur ki, onlar öz qulluq mövqelərindən sui-istifadə edərək uzun müddət Qəbələ, Oğuz rayonlarında meşə sahələrində ağacların qanunsuz kəsilərək satışı ilə məşğul olublar.

Keçirilmiş əməliyyat tədbirləri nəticəsində Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru İlqar Qəribov, mərkəzin baş mühasibi Sirac Kərimov, baş meşəbəyi İlqar Cəlalov, həmçinin idarənin məsul əməkdaşları Eyvaz Əliyev və Bakıxan Seyidəliyev saxlanılmışdır.

Direktor İlqar Qəribovun üzərinə və xidməti iş otağına baxış zamanı onun qanunsuz ağac kəsimindən əldə etdiyi külli miqdarda pul vəsaitləri və digər maddi sübutlar aşkar olunaraq götürülmüşdür.

Ekspertlərin verdiyi rəyə əsasən "meşə qatilləri" tərəfindən ağacların yaş halda kəsildiyi, hətta məhv edilən ağaclardan bəzilərinin yaşının 200-250 il olduğu da məlum olmuşdur.

Qeyd olunan faktlarla bağlı cinayət işi başlanılmış, hazırda cinayət işi üzrə bütün halların tam, hərtərəfli araşdırılması, eləcə də dəstənin digər üzvlərinin saxlanılması istiqamətində zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# OĞRU QONŞUSU İMİŞ...



**Evindən oğurluq edilməsi ilə bağlı Binəqədi RPİ-nin 4-cü Polis Şöbəsinə müraciət edən vətəndaş Lalə Şirinova heç ağlına da gətirməzdi ki, oğru elə qonşusu imiş...**

Daxil olan məlumat əsasında yaradılan əməliyyat-axtarış qrupu müəyyən edib ki, yeni evinə köçmüş L.Şirinovanı hadisəni törədən, qonşuluqda yaşayan Rəsul Razayev adlı şəxs bir müddət izləyib. Onun evdən çıxıb və gəldiyi vaxtları yəqinləşdirdikdən sonra evə girmək üçün dostu Anar İsmayılovla birlikdə plan qurublar.

Evdə kimsənin olmamasını bilən Rəsul həyətdə növbə çəkib. Anar isə yataq otağının pəncərəsindən evə daxil olub, hər tərəfi ələk-vələk etdikdən sonra bir neçə qızıl-zinət əşyasını və 3 min manatı oğurlayıb. Beləcə, iki dost qənimətləri bölüşüb kef çəkiblər. Ancaq onların "sevinci" çox uzun çəkməyib. Şöbənin əməkdaşları "isti izlərlə" cinayətin üstünü açıb, oğru qonşunu layiq olduğu cəzaya məhkum etmək üçün məhkəmənin qərarını gözləyirlər.

*Teymur Əlizadə,*
*polis kapitanı*

**"AĞOĞLAN" MƏBƏDİ**



V-VI əsrlərə aid alban monastırı olan "Ağoğlan" məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir.

# TARİXİMİZİ ÖYRƏNƏK

Əvvəllər məbədin qəsr kimi tanınması rəvayətlərdə də öz əksini tapmışdır.

1992-ci ildə erməni qəsbkarları Laçını işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə daş yazıları, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə silmiş, formalarını dəyişdirmişlər. Məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmiş, giriş qapısının önündə İrəvandan gətirilmiş xaç formasında daşlar basdırmış, binanın fasadını sökük kirəmid və dəmirlə əvəzləmişlər.

2007-ci ildə İrəvan şəhərində Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə erməni qriqoryan kilsəsi statusu verməklə işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırımı siyasəti yürütdürdüklərini bir daha əyani şəkildə göstərdilər.

# Mart ayının 11-dən 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 207 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 60 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 244, o cümlədən borclu şəxs qismində axtarışda olan 146 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 19 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 126 fakt müəyyən edilmişdir.

**REDAKSİYADAN:**

***Hansı peşənin sahibi oluruqsa-olaq, tariximizi bilməli və sevməliyik. Dəyişən dövrdə, kürəsəlləşən dünyada və sərhədləri aşan internet məkanında yaşadığımız ölkənin tarixi, keçmişi haqqında bilgimiz bizim ən kəsərli silahımızdır. Nəzərə alsaq ki, bu gün torpaqlarımız kimi tariximiz, incəsənətimiz, milli-mənəvi dəyərlərimiz də düşmən hədəfindədir, o zaman, vaxt itirmədən bilmədiklərimizi öyrənməli, bildiklərimizi isə öyrətməliyik. Bir müddət öncə tarixi Azərbaycan torpaqlarında dövlət quranların Baş nazirinə, eləcə də digər qanımıza susayanlara möhtərəm Prezidentimizin keçdiyi tarix dərsi hər birimizə örnək olmalıdır. Bu mənada, Daxili İşlər Nazirliyinin mətbu orqanı "Mübariz keşikdə" qəzeti də öyrətmək və təbliğ etmək missiyasını illərdir ki, uğurla və sevə-sevə yerinə yetirir. "Tariximizi öyrənək" rubrikasına start verməkdə məqsədimiz sıralarımızdakı gənclərimizə tarixi abidələrimizi, qədim yurd yerlərimizi-Qarabağımızı, Borçalımızı, Təbrizimizi, İrəvanımızı və Dərbəndimizi tanıtmaq, ən əsası, onlara tariximizi sevdirməkdir.***

## DÜNYAYA PƏNCƏRƏ

Son bir həftədə Türkiyədə narkotik vasitələrin dövriyyəsinə qarşı aparılan əməliyyatlar nəticəsində 3260 nəfər saxlanılıb. Bu barədə Türkiyənin Təhlükəsizlik İdarəsindən bildirilib. Ölkənin 59 şəhərində keçirilən əməliyyatlar zamanı 350 kiloqramdan çox narkotik vasitə, 10 min ədəd həb və çoxlu sayda silah-sursat ələ keçirilib.

*****

***Rusiya İstintaq Komitəsində yüksək texnologiyalar sahəsində kibercinayətlərin və cinayətlərin araşdırılması üzrə şöbə yaradılıb. Baş İstintaq İdarəsinin tərkibində yeni bölmənin yaradılması haqqında əmr ötən ilin dekabrında Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin tərəfindən imzalanıb. Şöbənin müstəntiqləri xüsusi spesifikliyi ilə seçilən cinayətlərin araşdırılmasında ixtisaslaşıblar.***

***Məlumata görə, qərar son illər Rusiyada kibercinayətlərin sayının artması ilə əlaqədar qəbul edilib. Məsələn, 2018-ci ildə Rusiyada belə kiberhücumların sayı 170 min olduğu halda 2019-cu ilin üç rübü ərzində bu rəqəm 200 mini ötüb.***

*****

Dağıstan Respublikası Müsəlman Ruhaniləri İdarəsinin (Müftilik) maarifləndirmə şöbəsinin əməkdaşları Babayurt rayonunun yol polisi ilə birlikdə "Yol qaydalarına əməl edin" devizi altında aksiya təşkil ediblər.

Aksiya çərçivəsində avtomobil sahiblərinə İslami baxımdan yol hərəkəti qaydalarına riayət olunması və sürücülük etikası barədə məlumatları özündə əks etdirən xüsusi kitabçalar paylanılıb. "Yollar, nəqliyyat vasitələri – biz insanlar üçün Allah-Təalanın mərhəmətinin bir nümunəsidir. Bütün bunlardan təhlükəsiz istifadə etmək üçün müəyyən təlimatlar, qaydalar mövcuddur. Əgər bu qaydalara əməl etməsək, digər insanlara da, özümüzə də maddi və ya fiziki cəhətdən zərər vura bilərik", - deyə Dağıstan Müftiliyinin nümayəndəsi sürücülərə müraciətində bildirib.

*****

***Çində insanları maska, şərf və saxta saqqalda müəyyənləşdirən yenilənmiş sifətin tanınması sisteminin tətbiqinə başlanılıb. Bu islahat koronavirusun yayılmasına görə əhalinin əksər hissəsinin tibbi maskalardan istifadə etməsi ilə izah olunur.***

***Koronavirus yayıldıqdan bir neçə həftə sonra Çində milyonlarla insan 95 nömrəli cərrahi maska və respirator taxmağa başlayıb. Bu, "SenseTime" süni intellekt istehsalçısının məhsullarının sifətin tanınması üçün adaptasiya olunması ilə nəticələnib.***

***Bu texnologiya yeni deyil. Belə ki, 2017-ci ildə Stenford Universitetinin aspirantı Amarcot Sinqh və onun qrupu tərəfindən maskalı sifətlərin identifikasiyası üzrə tədqiqat dərc edilib. Onların alqoritmi eynəkli, saxta saqqallı, şərf və şlyapa taxan insanların tanınmasında irəliləyiş olub. Süni intellekt insan sifətində bir neçə əsas nöqtəni müəyyənləşdirir və onları birləşdirməklə şəxsi identifikasiya edir və bu, insan üçün xarakterik olan unikal imzanı yaradır. Lakin bu süni intellekt modifikasiyası üçün maska taxan insanda açıq olan digər əsas nöqtələrdən istifadə olunub. A.Sinqh tərəfindən hazırlanan sistem yalnız göz və burun ətrafında əsas nöqtələrə əsasən maskalı insanları tanıyır.***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 14:00
Qiyməti 40 qəpik